Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

ictimai-siyasi qəzet

№ 9-10 (7530-7531) ✲ 1933-cü ildən nəşr olunur ✲ Çərşənbə, 20 fevral 2019-cu il. ✲ news@qebele-ih.gov.az

## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

***19 fevral***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin deputatı, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

✲ ✲ ✲

Prezident İlham Əliyev Avropa Komissiyasının Hərəkətlilik və Nəqliyyat üzrə (MOVE) Baş Direktorluğunun rəhbəri Henrik Hololeyi qəbul edib.

***18 fevral***

Ölkə başçısı İlham Əliyev Böyük Britaniyanın Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolsonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

✲ ✲ ✲

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sumqayıt şəhərində səfərdə olub. O, Sumqayıta səfəri çərçivəsində Sumqayıt Kimya Sənaye Parkında “SOCAR Polymer” layihəsi çərçivəsində inşa edilən yüksəksıxlıqlı polietilen zavodunun açılışında iştirak edib.

***13 fevral***

Prezident Beyləqan rayonunda səfərdə olub.

Dövlətimizin başçısı Beyləqan rayonuna səfəri çərçivəsində 110/35/10 kv-luq “Beyləqan 1” yarımstansiyasının, Beyləqan Tarix-Diyarşünaslıq Muzeyinin, Beyləqan Olimpiya İdman Kompleksinin, Mingəçevir -Stansiya, Mingəçevir-Bəhramtəpə-Beyləqan avtomobil yolunun açılışında iştirak edib.

✲ ✲ ✲

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev fevralın 13-də Müdafiə Nazirliyinin Beyləqan rayonu ərazisində yeni inşa edilmiş “N” saylı hərbi hissəsində yaradılan şəraitlə tanış olub.

***12 fevral***

Prezident İlham Əliyev REAL televiziyasının rəhbəri Mirşahin Ağayevə geniş müsahibə verib.

***11 fevral***

Ölkə başçısı İlham Əliyev Niderland Krallığı Senatının sabiq sədri, Avropa Şurası Parlament Assambleyasının fəxri sədri, Niderland-Azərbaycan Dostluq Qrupunun sədri Rene Van der Lindeni qəbul edib.

# Güclü iqtisadiyyat, uğurlu regional siyasət

Azərbaycan iqtisadiyyatının sürətli inkişafı davam edir. Son 15 il ərzində ölkəmiz dünyada iqtisadi artım tempinə görə sürətlə inkişaf edən dövlətlər sırasında yer tutub. Bunun əsas səbəblərindən biri qətiyyətlə və davamlı şəkildə aparılan islahatlardır. Görülən işlər öz bəhrəsini verir və iqtisadi uğurlar ardıcıl davam edir. Hökumətin iqtisadi strategiyasının əsasında Azərbaycan iqtisadiyyatının uzunmüddətli, dayanıqlı iqtisadiyyat kimi özünü göstərməsi, neftdən, qazdan asılılığın minimuma düşməsi və qeyri-neft sektorunda yüksəlişin durmadan sürətlə davam etməsidir.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə başlanmış genişmiqyaslı quruculuq işlərinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi, həm də regionların inkişafına şərait yaratmışdır. Burada xatırlatmaq yerinə düşər ki, ulu öndər hələ sovetlər dönəmində Azərbaycanın dağlıq ərazilərinin sosial-iqtisadi inkişafına dair qəbul etdiyi qərarla bu cür yanaşmanın əsasını qoymuşdur.

Azərbaycan dövləti regionların qeyri-bərabər inkişafını iqtisadi təhlükəsizlik baxımından ciddi problem kimi dəyərləndirir və buna görə də regional inkişaf proqramları hazırlayıb həyata keçirir.

Azərbaycan neft və qaz ehtiyatları ilə yanaşı, digər təbii resurslarla da zəngindir. Bu ehtiyatların əsas hissəsi isə regionlarda yerləşir. Bu baxımdan regionların təbii resurs potensialının yenidən qiymətləndirilməsi, onun təsərrüfat dövriyyəsinə cəlb olunması və səmərəli istifadə edilməsi mühüm vəzifə kimi qarşıya qoyulmuşdur.

Azərbaycanın bölgələrinin tarazlı inkişafını təmin etmək üçün digər sahələrlə yanaşı, yerlərdə aqrar-sənaye kompleksinin sürətli inkişafı, valyuta gətirən kənd təsərrüfatı məhsullarının istehsalının genişləndirilməsi regionlardakı problemlərin aradan qaldırılmasına stimul verir.

Regional inkişaf proqramlarında nəzərdə tutulan tədbirlərin sistemli şəkildə icra edilməsi qeyri-neft sektorunun inkişafı, bölgələrdə yeni iqtisadi münasibətlərin formalaşması və iqtisadi fəallığın artması yeni iş yerlərinin açılması baxımından əhəmiyyətli olmuş, əhalinin rifahının yaxşılaşdırılması üçün prioritet olmuşdur. İqtisadi inkişaf sosial inkişafa şərait yaratdığı kimi, həyat səviyyəsinin yüksəldilməsi də iqtisadi fəallığın artmasına zəmin yaradır.

Bu baxımdan yüksək xərctutumlu regional proqramların maliyyə təminatına malik olması, proqram çərçivəsində investisiya layihələrinin davamlı olaraq maliyyələşdirilməsi onun uğurlu icrasını təmin etmişdir.

Dayanıqlı ictimai-siyasi sabitlik, zəngin potensial, şaxələndirilmiş iqtisadiyyat, qeyri-neft sektorunun inkişafı, böyük transmilli layihələr üzərində aparılan işlər və bu istiqamətdə atılan məqsədyönlü addımlar ölkəmizin tükənməyən sərvətlərindən səmərəli və xalqın mənafeyinə uyğun istifadə olunması Azərbaycanı nəzərdə tutulan hədəflərə yaxınlaşdırır.

**“Qəbələ”**




# Əhalinin rifahının yaxşılaşdırılması istiqamətində növbəti addım

Ölkə başçısının minimum əmək haqlarının artırılması ilə bağlı imzaladığı sərəncam respublikamızda əhalinin rifah səviyyəsinin yaxşılaşdırılması istiqamətində atılan növbəti mühüm addımdır. Azərbaycanda həyata keçirilən sosial siyasətin kökündə vətəndaş amili dayandığı üçün sözügedən sərəncam əhalinin sosial müdafiəsinin gücləndirilməsi baxımından önəmli hadisə kimi qiymətləndirilməlidir.

Sərəncama əsasən Azərbaycanda minimum əmək haqqının məbləğinin 2019-cu il martın 1-dən 50 manat artırılaraq 130 manatdan 180 manata çatdırılması, bununla da ölkəmizdə minimum əmək haqqının yaşayış minimumuna çatdırılması nəzərdə tutulub.

Bu mühüm sosial əhəmiyyətli tədbir eyni zamanda, əmək münasibətlərinin leqallaşdırılması istiqamətində də sağlamlaşdırıcı təsir göstərəcək.

Minimum əməkhaqqı məbləğinin artırılması, sadəcə, minimum əməkhaqqı alan vətəndaşların gəlirlərinin artması deyil, eyni zamanda, həmin meyardan istifadə etməklə əməkhaqqı müəyyənləşən vətəndaşların da maaşlarında artıma səbəb olacaq.

**«Qəbələ»**